# Mən sizə nəyi qadağan edirəmsə, ondan çəkinin, nəyi də sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin

Əbu Hureyra Abdurrahmən bin Saxr (Allah ondan razı olsun) demişdir: Mən Allah Rəsulunun (salləllahu aleyhi va səlləm) belə dediyini eşitdim: "Mən sizə nəyi qadağan edirəmsə, ondan çəkinin, nəyi də sizə əmr edirəmsə, onu bacardığınız qədər yerinə yetirin. Həqiqətən, sizdən əvvəlki ümmətləri, çoxlu sual verməkləri və öz peyğəmbərlərinə müxalif olmaqları həlak etmişdir".
[Səhih] [رواه البخاري ومسلم]

Rəsulullah (sallallahu əleyhi va səlləm) bizə bildirmişdir ki, əgər o, bir şeyi bizə qadağan edərsə, onu istisnasız olaraq tərk etməyimiz bizə vacib olar və əgər bizə bir şeyi əmr edərsə, onu gücümüz çatdığı qədər yerinə yetirməliyik . Sonra Rəsulullah (sallallahu əleyhi va səlləm) bizi, bizdən əvvəlki bəzi ümmətlər kimi olmaqdan çəkindirmişdir. Onlar peyğəmbərlərinə çoxlu suallar verir, onlara qarşı çıxırdılar. Buna görə də Allah onları müxtəlif növ həlak və fəlakətlərlə cəzalandırdı. Onların həlak olduqları kimi biz də həlak olmayaq deyə, onlar kimi olmamalıyıq.

https://www.sunnah.global/hadeeth/az/show/66517

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee